# Bakı tarixin ən böyük Şahmat Olimpiadasına evsahibliyi edir

# Eltac SƏFƏRLİ: “Hamımız qızıl medal arzulayırıq”

Sentyabrın 1-14-də Bakıda keçiriləcək Ümumdünya Şahmat Olimpiadasına hazırlaşan Azərbaycan yığmasının tərkibində ən gənc qrossmeyster 24 yaşlı Eltac Səfərlidir. Son vaxtlar bir neçə nüfuzlu turnirdə uğurla çıxış etmiş şahmatçı Rusiyanın “Sport-Ekspress” qəzetinə müsahibə vermişdir. Oxucularımızın marağını nəzərə alaraq müsahibəni təqdim edirik.

***- Artıq neçə ildir sizdən böyük uğurlar gözlənilir. Hələ 5-6 il əvvəl dünyanın ən güclü 100 şahmatçısının siyahısına daxil oldunuz. Bu il isə 2700 reytinq göstəricisinin bir neçə addımlığındasınız. Oyununuzun keyfiyyətini nəyin hesabına yaxşılaşdıra bildiniz?***

- Bu il mən bir çox yarışda iştirak etmişəm. Şadam ki, sabit oyun nümayiş etdirə bilmişəm. Həqiqətən bir neçə turnirdə qalib olmuş, yaxud birinci yeri bölüşmüşəm. Fikrimcə, bu, daha ciddi və daha çox çalışmağımın nəticəsidir. Şahmatda uğur qazanmaq üçün çox əziyyət çəkməlisən. Yüksək reytingə malik olmaq çox şey deməkdir, lakin hər şey deyil. Hesab edirəm ki, sabit çıxış etmək və lazımi məqamda yaxşı formada olmaq daha vacibdir. Ümidvaram ki, Olimpiada günləri yığmamızın bütün üzvləri ən yaxşı formada olacaq və biz medallar uğrunda mübarizə apara biləcəyik. Əslində isə hamımız, əlbəttə ki, qızıl medal arzulayırıq.

***- Bundan əvvəlki Olimpiadada Azərbaycan yığması ardıcıl 7 tur liderlik etsə də, yekunda ikinci yeri bölüşmüşdür. Qələbə üçün çatışmayan nə idi?***

- Nə demək olar? Bir tərəfdən bu, Olimpiadalar tarixində bizim ən yaxşı nəticəmizdir. Digər tərəfdən isə yekunda biz 2-5-ci yerləri bölüşdük və əlavə göstəricilərə görə ancaq 5-ci olduq. Bu, bizə çox pis təsir etdi. İndiyədək yadıma düşəndə ürəyim ağrıyır. Bir balaca bəxtimiz də gətirmədi. Ümumiyyətlə, dünyanın ən güclü yığmaları ilə döyüşəndə bəxt də müəyyən rol oynayır. Bunsuz qızıl medalı əldə etmək çox çətindir.

***- Sizin komandada iki superqrossmeyster var - Şəhriyar Məmmədyarov və Teymur Rəcəbov. Rusiya, ABŞ, Çin yığmalarında isə demək olar ki, bütün şahmatçılar elitada yer almışdır. Lakin Azərbaycan artıq iki dəfə Avropa çempionatının qalibi olmuşdur. Bu, nəyin hesabına baş verir?***

- Əlbəttə ki, Şəhriyar və Teymur uzun illərdir bizim liderlərdir. Lakin məyusedici mövzuya da toxunmaya bilmərəm. Artıq 3 ildir dostumuz və məşhur qrossmeyster Vüqar Həşimov bizimlə yoxdur. Ağır xəstəlik onu gənc yaşında əlimizdən aldı. Biz indiyədək bu itkinin acısını yaşayırıq və heç vaxt onu unutmayacağıq. Axı Vüqar dünya onluğunda sabit olaraq möhkəmlənmişdi. Məhz o, həlledici partiyada qalib gəldikdən sonra biz ilk dəfə Avropa çempionu adını qazandıq. Azərbaycan həmişə komanda kimi güclü olmuşdur. Ümid edirəm ki, mən və Rauf



Məmmədov daha adlı-sanlı yoldaşlarımıza kömək edə biləcəyik.

***- Vətəndə keçirilən Olimpiada xüsusi bir yarışdır. Bilirik ki, Bakıda yığma üzvlərinin təsviri olan plakatlar asılmışdır. Doğma divarlar arasında çıxış etmək həyəcanlıdırmı?***

- Düzdür, bir tərəfdən doğma divarlar kömək edir. Digər tərəfdən isə, böyük həyəcan keçiririk. Yarışlara qohumlar, tanışlar, yaxın dostlar gələcək. Onların qarşısında uğursuz çıxış etməyə haqqımız yoxdur. Buna görə Bakıda layiqli çıxış etmək üçün əlimizdən gələni edəcəyik.

***- Komandanın kapitanı rusiyalı mütəxəssis Aleksey Dreyevdir. Hansı lövhədə çıxış edəcəyinizlə bağlı onunla söhbətiniz olubmu?***

- Mənim start nömrəm hələ ki, məxfi saxlanılır. Bu barədə ancaq yarış ərəfəsində məlumat verə bilərəm. Belədə isə çox şadam ki, bizimlə Dreyev kimi təcrübəli kapitan işləyəcək. Çox yaxşı münasibətlərimiz var. Bundan əlavə, komandaya fransalı şahmatçı Etyen Bakro da kömək edəcək. Biz hazırda çox sıx birləşmişik - hamımızın bir məqsədi var.

***- Bakı çoxlu sayda iri idman və qeyri-idman tədbirləri qəbul edir. Böyük sayda şahmat turnirləri, o cümlədən sonuncu möhtəşəm Dünya kuboku keçirilmişdir. Təşkilatçılar Bakı Olimpiadasının tarixdə ən yaxşı yarış olacağını vəd edirlər. Fikrinizcə, bu, həqiqətənmi belə olacaq?***

- Jurnalistlərin fikrincə, Bakıda fantastik Dünya kuboku yarışı keçirilmişdir. Bu, Olimpiada ərəfəsində, demək olar, əsas sınaq idi. Bakıda o qədər iri tədbirlər keçirilib ki, artıq sübuta yetiriləsi bir şey qalmayıb. Buna baxmayaraq, evdə az qala 400 komandanı qəbul etmək çox böyük məsuliyyətdir. Lakin əminəm ki, Bakıdakı Olimpiada tarixdə ən yaxşı yarış kimi tanınacaq.

***- Hər bir qrossmeysterin şəxsi sponsora ehtiyacı var. İlk onluqda yer almış şahmatçıların sponsorları mövcuddur. Bəs perspektivdə sizə də diqqət yetirən olacaqmı? Axı Azərbaycanda idmançıların uğurlarına çox diqqətlə yanaşırlar.***

- Azərbaycanda idmana çox güclü dəstək var. Bu şahmata da aiddir və biz də buna nəticələrimizlə cavab veririk. Yəni, bizə xərclənən vəsait havaya sovrulmur.

Dövlət çox kömək edir. Biz bunu hiss edirik. Buna baxmayaraq, hansısa iri bir şirkətlə əməkdaşlıq etmək istərdim. Şəxsi məşqçiyə, güclü kompüterə, rahat yerlərdə toplantılar keçirmək imkanına ehtiyacım var. Lakin mən oyunumu daha da gücləndirməliyəm və böyük bir turnirin qalibi olmalıyam ki, hansısa iri bir firma mənə əməkdaşlıq təklif etsin.

*“Azərbaycan”*







*Foto A.MƏMMƏDOVUNDUR*